AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 3
Səhifə: 120-127
http://dx.doi.org/10.59849/2663-4406.2024.3.120

ISSN: 2663-4406
E-ISSN: 2709-2699

# Füzulinin "Şikayətnamə" əsərində nəzmlə nəsrin vəhdəti

**Həcər Vəliyeva**
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti Aparatı
E-mail: doktorant2011@yandex.ru

**Annotasiya.** XVI əsr şairləri arasında bütün dövrlərin mütəfəkkiri, dünya mədəniyyəti və incəsənətinin dünya miqyaslı şah əsərini yaradan Məhəmməd Füzuli xüsusilə seçilir. Füzulinin qafiyəli nəsrlə qələmə aldığı "Şikayətnamə" əsərində ictimai problemlərdən, zülmdən, iztirabdan, kütlənin ağır həyatından şikayətlər eşidilir, dövlət məmurlarının hiylə və riyakarlığı təsvir edilir. Füzuli klassik ədəbiyyatımızda səc sənətində böyük məharət nümayiş etdirmişdir. İstər Qurani-Kərimdə, istərsə də sonrakı dövrlərin ədəbi nümunələrində işlənən səc nəzmə xüsusi emosional ruh bəxş etmişdir. Satiranın ən gözəl nümunələrindən biri olan "Şikayətnamə"də kəndlilərin məişət problemləri, dözülməz zəhmətinə diqqət yönəldilir. Şair dövlət məmurlarının maraqları ilə xalqın ehtiyacları arasında dərin ziddiyyət görərək ədalətsizlik uğrunda mübarizə aparır. Humanist baxışları ilə diqqət çəkən, xalqın dərdinə şərik olan şair onların müdafiəsinə qalxır, sinfi bərabərsizliyə qarşı mübarizə aparır. Qeyri-adi lirizmi və yüksək bədii keyfiyyəti ilə seçilən "Şikayətnamə" böyük mütəfəkkirin mövqeyini, humanizm və azadlıq ideyalarını nümayiş etdirir.
**Açar sözlər:** Füzuli, "Şikayətnamə", məktub, nəsr, nəzm

**Məqalə tarixçəsi:** göndərilib – 13.06.2024; qəbul edilib – 24.06.2024

# The unity of verse and prose in Fuzuli's work "Shikayetnameh"

**Hajar Valiyeva**
Doctor of Philosophy in Philology
Presidium of ANAS
E-mail: doktorant2011@yandex.ru

**Abstract.** The great thinker of all times, Mahammad Fuzuli, who created a masterpiece of world culture and art of world scale, stands out among the poets of the 16th century. In the work "Shikayetnameh" by Fuzuli, written in rhythmic prose, one can hear complaints about social problems, oppression, suffering, harsh life of the masses, and describes the lies and hypocrisy of government officials.
Fuzuli demonstrated great mastery in the art of saj in our classical literature. Saj, used both in the Holy Quran and in literary works of later periods, gave poetry a special emotional mood. Being one of the best examples of satire, "Shikayetnameh" draws attention to the everyday problems of peasants, unbearable labor. The poet fights against injustice, seeing a deep contradiction between





the interests of government officials and the needs of the people. The poet, attracting attention with his humanistic views, sympathizing with the sorrow of the people, takes their side and fights against class inequality. Distinguished by extraordinary lyricism, high artistry, "Shikayetnameh" demonstrates the position of the great thinker, his ideas about humanism and freedom.
**Keywords**: Fuzuli, "Shikayetnameh", letter, prose, verse

**Article history:** received – 13. 06.2024; accepted – 24.06.2024

## Giriş / *Introduction*

Məhəmməd Füzulinin yaradıcılığı geniş və çoxşaxəlidir. Şair öz qələmini divan ədəbiyyatının müxtəlif janrlarında sınamış, həm nəzm, həm də nəsr sahəsində təkrarsız sənət nümunələri yaratmışdır. Füzulinin nəsr əsərləri şairin ədəbi-bədii düşüncə tərzi, poetik görüşləri, söz-məna incəliklərinin müəyyənləşdirilməsində xüsusi əhəmiyyət kəsb edir. Şairin bədii nəsr yaradıcılığına Azərbaycan-türk, fars, qəsidələr divanına yazdığı dibaçələr, "Leyli-Məcnun" poemasının dibaçəsi, "Hədisi-ərbəin" tərcüməsinə yazdığı müqəddimə, dövrün tanınmış şəxsiyyətlərinə – Nişançı Mustafa paşa, Əhməd bəy, Bəyazid Çələbi, Qazi Ələddin, Ayas paşa və başqalarına yazdığı məktublar, fars dilində qələmə aldığı "Rindü Zahid" və "Səhhət və Mərəz" kimi əsərləri, "Hədiqətüs-süəda" məqtəli və ərəb dilində yazdığı "Mətləül-etiqad" traktatı daxildir. Füzulinin dövrün tanınmış adamları ilə məktublaşması tutması həm şairin yüksək təbəqə nümayəndələrinə, şeir-sənət əhlinə olan dərin hörmət-ehtiramını, həm də özünün ruhi-emosional vəziyyətini nümayiş etdirir.

## Əsas hissə / *Main part*

Füzulinin müəllifi olduğu məktublar Azərbaycan tədqiqatçı-alimlərin diqqətini cəlb etsə də, onların sistemli araşdırılması sahəsində türk tədqiqatçılarının fəaliyyəti daha diqqətəlayiqdir. Türk alimi Ə.Qaraxanın "Füzulinin məktubları" adlı məqaləsində tanınmış şəxsiyyətlərə ünvanlanmış 4 məktub haqqında məlumat verilmiş, tanınmış şəxslərin cəmiyyətdə tutduğu mövqe, ictimai-sosial vəziyyəti, şairlə münasibəti kimi məsələlərə aydınlıq gətirilmişdir. Füzulinin məktubları içərisində "Şikayətnamə" adı ilə tanınan Nişançı paşaya ithaf etdiyi məktuba toxunan Ə.Qaraxan onun dövrün say-seçmə adamlarından olan Nişançı Mehmet paşaya deyil, Nişançı Cəlalzadə Mustafa Çələbiyə ünvanlandığını qeyd edir [5, s.246].

Dərin ifşaedici məzmunu ilə ictimai-sosial mühitin tənqidinə diqqəti yönəldən "Şikayətnamə" əsəri Füzulinin dövlət idarəçilik sistemindəki biganəlik, hərc-mərclik, süründürməçilik hallarına qarşı etirazını, dövlət məmurlarının vəzifə səlahiyyətlərini aşması kimi məqamları özündə ehtiva edir. "Bəzi alimlər bunu, haqlı olaraq, ana dilimizdə yaranan ictimai satiranın ilk örnəyi sayırlar. Məktubdan belə məlum olur ki, Osmanlı sultanı Süleymana müraciət edən qoca şairə gündə doqquz ağça təqaüd təyin olunur. Bu barədə bir barat (təqaüdü təsdiq edən sənəd) gəlir. Baratı götürüb təqaüdünü almaq üçün övqaf idarəsinə gedən şair oradakı məmurlardan yalnız "namübarək üzlər" görüb, "namülayim sözlər" eşidir" [1, s.874-875].

Füzulinin yaşadığı dövrdə mövcud ictimai-siyasi, sosial-ədəbi vəziyyət, ətrafında cərəyan edən hadisələr, fərdiliyi və şəxsiyyəti ilə cəmiyyəti təmsil edən bir insan olaraq onun ədəbi irsində "şikayət" motivinin təzahür etməsinə dəlalət etmişdir. Ailədaxili mühit, mövcud şərait, mənəvi-ruhi həyat tərzində buraxılan izlərin dərinləşməsi, "şikayət" hissinin poetik nümunələrində qaldırılması ilə nəticələnmişdir [6, s.1]. Füzulinin hiss və duyğularını, hakim dairələrin şeirə, sənətə etinasız münasibətlərinə dair giley-güzarını özündə ehtiva edən "Şikayətnamə" əsəri bir sənətkar kimi onda

ruh düşkünlüyü yaratmaq əvəzinə, onu qələmə daha bərk sarılmağa sövq edir. Elm və irfan əhli olan Füzuli şeir-şair dualizminin fövqündə durmaqla sənətkarlıq hünərini ortaya qoyaraq siyasi dairələrdəki mənsəb sahiblərini, sənət əhlinə etinasız yanaşan vəzifə hərislərini cəmiyyət üçün təhlükəli manea hesab edir. *"...bir cəm gördüm, hekayətləri pərişan. Nə səfadan onda əsər, nə sidqdən onda nişan var... Salam verdim – rüşvət degildir, deyü almadılar"* [3, s.297-298].

Cəmiyyətdəki nöqsanları aşkar surətdə təqdim edərkən *"Salam verdim – rüşvət degildir, deyü almadılar"* fikri ilə hakim dairələrdə rüşvətxorluğun aparıcı qüvvəyə çevrildiyini Füzuli ən təsirli vasitə olan "söz" vasitəsilə kütləyə çatdırır. Onun ruhundakı mübarizlik hissi təqdirəlayiq hal olub, onu xalqın fəal təəssübkeşi səviyyəsinə qaldırır. Haqq səsini ucaltmaqda çətinlik çəkən xalq nümayəndələrinin adından çıxış edən Füzuli cəmiyyətdəki yüksək mənsəb sahiblərinin davranışından təngə gələn zəhmətkeş təbəqənin hamisi kimi çıxış edir. *"Hökm göstərdim – faidəsizdir, deyü mültəfit olmadılar. Əgərçi zahirdə surəti-itaət göstərdilər, əmma zəbani-hal ilə cəmi sualıma cavab verdilər"* [3, s.298].

Füzulinin "Şikayətnamə" əsərində "dedim-dedi" tərzində qələmə aldığı dövlət məmurları ilə dialoqu kütlənin mənafeyindən çıxış etməyib, öz şəxsi mənfəətini üstün tutan, sənət və sənətkardan layiqli dəyəri əsirgəyən bu qulluq sahiblərinin iç dünyasını açmağa imkan yaradır:

*"Dedim:*

*– Ya əyyühəl-əshab! Bu nə fe'li-xəta və çini əbrudur?*

*Dedilər:*

*– Müttəsil bizim adətimiz budur.*

*Dedim:*

*– Mənim rəayətimi vacib görmüşlər. Və mənə bərati-təqaüd vermişlər ki, övqafdan həmişə bəhrəmənd olam. Və padşaha fərağət ilə dua qılam.*

*Dedilər:*

*– Ey miskin! Sənin məzaliminə girmişlər və sənə sərmayeyi-tərəddüd vermişlər ki, müdam faidəsiz cidal edəsən. Və namübarək üzlər görüb, namülayim sözlər eşidəsən.*

*Dedim:*

*– Bəratımın məzmunu nə üçün surət bulmaz?*

*Dedilər:*

*– Zəvaiddir, hüsuli mümkün olmaz.*

*Dedim:*

*– Böylə övqaf zəvaidsiz olurmu?*

*Dedilər:*

*– Zəruriyyati-asitanədən ziyadə qalırsa, bizdən qalırmı?*

*Dedim:*

*– Vəqt malın ziyadə təsərrüf etmək vəbaldır.*

*Dedilər:*

*– Ağçamız ilə satın almışız, bizə həlaldır.*

*Dedim:*

*– Hesab alsalar, bu sülukunuzun fəsadı bulunur.*

*Dedilər:*

*– Bu hesab qiyamətdə alınır.*

*Dedim:*

*– Dünyada dəxi hesab alınır, xəbərin eşitmişiz.*

*Dedilər:*

*– Ondan dəxi bakimiz yox, katibləri razı etmişiz.*





*Gördüm ki, sualıma cavabdan qeyri nəsnə verməzlər və bu bərat ilə hacətim rava qılmağı rəva görməzlər, naçar tərki-mücadilə qıldım və mə'yusü məhrum guşeyi-üzlətimə çəkildim"* [3, s. 298].

Şeirə, sənətə məftun Füzuli dövrünün ziyalılarına üz tutaraq onları şeir və sənətkara layiqli dəyər verməyə səsləyir, dərin məna yükü ehtiva etməyən şeir müəlliflərini mənfəətpərəst hesab edirdi. Öz xalqının niskilini, taleyini söz vasitəsilə çatdırmağı hədəf alan şair fikrən bütün varlığı ilə xalqın yanında olduğunu hakim dairələrə çatdırır. Şair əhlini digər peşə sahiblərindən fərqləndirən Füzuli nəsihətçilik ruhunun onların bədii örnəklərində aparıcı qüvvə olduğunu, insan əxlaqi dəyərlərinin formalaşmasında xüsusi diqqət kəsb etdiyini bildirir. Mövcud quruluşun mütləq süqutuna inam bəsləyən Füzuli tezliklə haqq-ədalətin bərqərar olacağına, insanları məngənəyə salan despotik qanunların ləğv olacağına böyük ümid bəsləyir. Bəzi məqamlarında hətta taleyindən giley-güzar edərək, bunu nə dövlət idarəçiliyi, nə də mövcud qanunlarla əlaqələndirmir. Bunu Tanrı dərgahında tale yazısı kimi dəyərləndirir:

*...Gərçi əndühü möhnətim çoxdur,*
*Hiç kimdən şikayətim yoxdur.*
*Taleimdir mənə cəf'a gətirən,*
*Hər bir anında min bəla gətirən* [3, s.300].

Füzuli bu məqamda aylıq təqaüdü almaq üçün övqaf idarəsində çalışanların süründürməçiliyi, özünün əzab-əziyyətindən çox, Nişançı paşanın zəhmətinin boşa getməsi, məmurların özbaşınalığı sayəsində paşanın bu istəyinin baş tutmamasına heyfsilənir.

Dövlət məmurları tərəfindən şeirə, sənətkara verilən qiymət Füzulinin bədbinliyə qapılmayaraq cəmiyyət üçün yararlı fərd kimi xalqın mənafeyini şəxsi mənafeyindən üstün tutmaqla kənara çəkilib seyrçi mövqeyində deyil, önə atılıb fəal qəhrəman kimi mübarizəyə qoşulmasına vəsilə olmuşdur. Bu şikayət motivli nümunə çox güman ki, cəmiyyətdə böyük səs-küyə səbəb olmuş, dövlət qurumları tərəfindən övqaf idarəsindəki özbaşınalıq nəzarətə götürülməklə şairin sonrakı dövrlərdə Kərbəla və ya Nəcəf şəhərlərində dini idarələrdə qulluğa götürüldüyü, maddi vəziyyətinin təmin olduğu müəyyən edilmişdir.

Füzuli yaradıcılığını səciyyələndirən sözə yeni yanaşma tərzi, məna yükünün artırılması, ifadə olunan fikrin sətiraltı məna çalarlarının metaforikləşdirilməsi onun hikmət xəzinəsini daha da zənginləşdirmişdir. Şairin söz inciləri bədii tərtibat cəhətdən klassik ədəbi nümunələrlə müəyyən dərəcədə səsləşsə də, poetik xüsusiyyət, ədəbi baxış, bədii ruh baxımından həmdövrlərinin poetik irsini belə kölgədə qoyur. Şeir və sənət təəssübkeşi olan Füzuli müasirlərinin bədii irsindən bəhrələnməklə yeni bir yaradıcılıq üslubu ilə seçilən və yadda qalan sənət örnəkləri ərsəyə gətirmişdir.

Şairin düşüncə tərzindən süzülməklə cilalanmış, fərdiləşdirilmiş real həyat tabloları ümumiləşdirilmiş obrazlı təfəkkürün, poetik fəlsəfi fikrin, bədii kompozisiyanın məntiqi davamına əsaslanır. Bədii dilin qayəsi, özəyi olan bədii təsvir və ifadə vasitələri emosional mühitin, obrazlı baxış tərzinin, poetik məna çalarlığının, qüvvətli sətiraltı mənanın, dəqiq və dolğun şəxsləndirmənin, müqayisəli bənzətmə məfhumunun tamamlanmasına xidmət edir. Füzulinin "Şikayətnamə" əsərində bədii formanın mükəmməlliyinə, melodik lirizmə, obrazlı süjet təsvirinə əsaslanan bəlağət vasitələri işlənməklə şairin yüksək sənətkarlıq potensialının mövcudluğundan, yaradıcılıq qüdrətinin kamilliyindən, bədii dil vahidlərindən məharətlə faydalanmaq bacarığından xəbər verir.

Klassik Şərq ədəbiyyatı üçün səciyyəvi poetik fiqurlar, fəsahət, bəlağət, bədii-estetik təfəkkür, ritmik ahəng, poetik təxəyyül, bədii təsvir sistemi, dil özəlliklərinin, forma-məzmun elementlərinin araşdırılması Füzuli sənətkarlığının ədəbi-bədii məramı, yaradıcılıq psixologiyası,

poetik örnəklərinin təsir gücünü, fərdi üslubi keyfiyyətlərini aşkara çıxarmağa xidmət edir. Dahi Füzulinin məktublarından biri olan "Şikayətnamə" ümumən orta yüzillər türkdilli bədii nəsr örnəklərinin anası sayıla bilər [1, s.877]. Füzulinin "Şikayətnamə" əsəri səc sənətinin klassik poetikada gözəl nümunələrindən biri kimi izafət tərkibləri ilə yanaşı, xalq danışıq tərzinə yaxın dil, üslubi leksikaya malikdir. Bədii sənətdə sözün ritmik qurumunu tənzimləyən, klassik ədəbiyyatda ahəng yaradan poetik fiqur səc (daxili qafiyə və ritmik nəsr) Qurani-Kərimdən gələn məftunedici səs ahəngdarlığı yaradan ifadə vasitəsidir. Şairlər və nasirlər, hətta tarixçilər öz əsərlərində səc sənəti vasitəsilə zəngin fəsahət və bəlağət yaratmışlar. Nəsrdə və şeirdə səc sənəti böyük ustalıq hesab edilmiş, öz qələminin qüdrətini göstərmək istəyən şairlər bu sənətdən istifadə etmişlər [2, s.165]. Səc bədii-poetik kateqoriya kimi misra, yaxud sözlər arasında qafiyələnmə, ritmik ahəng yaradan estetik-emosional təsir gücünü artıran vasitədir. Səcli nəsrin, bədii söz sənətinin ləfzi və mənəvi gözəlliklərini özündə ehtiva edən, ən zəngin məxəz hesab olunan, Allah tərəfindən Məhəmməd peyğəmbərə göndərilən vəhylər əsasında meydana çıxan Qurani-Kərim müsəlmanlara ünvanlanan əxlaqi-didaktik topludur. Orta çağlar elm-irfan əhli Quran bəlağət və fəsahətindən ilhamlanmaqla bədii sözün dəyərini, ifadə vasitələrinin rəngarəng çalar və poetik dilin özəlliklərini mahiyyət etibarilə açmaq üçün səcli nəsrə müraciət etmişlər. Orta əsr mütəfəkkirləri arasında Füzuli yaradıcılığında səcli nəsr vasitəsilə bədii dilin cilalanmış, forma və məzmun vəhdətinin tamamlandığı, poetik təbirlər və simvolik ifadələrdən təşkil olunmuş ən kamil nümunələri işlənmişdir.

Füzuli işlətdiyi zəngin səc nümunələrinin müxtəlif – ardıcıl, qoşalanmış, çarpaz növləri ilə fikrin daha emosional-ekspressiv ifadəsinə nail olmuşdur.

1) Ardıcıl səc bir qafiyə üzərində qurulur, burada iki və daha çox qafiyələnmiş birləşmə işlənir: *"Əlhasil,* ***fərqi-iqüdarımı*** *əfsəri-qənaət ilə,* ***qalibi-e'tibarımı xəl'əti-üzlət*** *ilə müzəyyən qılıb..."* [3, s.295], *"Xüsusən bizim padişahımız ki,* ***rütbeyi-səltənəti mə'nidə payeyi-xilafətdir*** *və* ***səriri-hökuməti həqiqətdə məsnədi-imamətdir"*** [3, s.296].

2) Qoşalaşmış səcdə isə ən azı iki qoşa qafiyələnmiş söz düzümü işlənir. *" Ol,* ***şahidi-məcruh*** *kimi* ***təqrirdən peşiman****, mən* ***müddəiyi-kazib*** *kimi* ***təşni'dən pərişan*** [3, s. 299]", *"Əlqissə,* ***şiddəti-hirman*** *kəmala* ***yetdikdə*** *və* ***dəryayi-heyrətim*** *tüğyan* ***etdikdə*** *xatirimə bu yetdi... "* [3, s.299].

3) Bir sıra hallarda səc yaradan sözlər ardıcıl və qoşa-qoşa deyil, çarpaz-növbələşmə yolu ilə qafiyələnir ki, bu da mətnin ritmik düzümünə yeni bir ahəng verir. *" Lacərəm,* ***hükkami-mülkə*** *təvəssül* ***mucibi-hüsuli-məvahibdir*** *və* ***müluki-əsrə*** *təvəssül* ***baisi-vüsali-mətalibdir"*** [3, s. 296].

Füzulinin "Şikayətnamə" əsərində izafət zəncirləri şəklində tərkib əmələ gətirən söz birləşmələrindən təşkil olunmuş səc nümunələri aşağıdakı kimi təsnif oluna bilir:

1) İki sözdən ibarət səclər: "***Müddəti-tərəssüd*** *münqəzi* ***olduqda və oyyami-intizar*** *sərəncam* ***bulduqda*** *mübəşşirlər ki..."* [3, s. 296], *"Əlqissə,* ***şiddəti-hirman*** *kəmala* ***yetdikdə*** *və* ***dəryayi-heyrətim*** *tüğyan* ***etdikdə*** *xatirimə bu yetdi..."* [3, s.299].

2) Üç sözdən ibarət səclər: "*Lacərəm, hükkami-mülkə təvəssül* ***mucibi-hüsuli-məvahibdir*** *və müluki-əsrə təvəssül* ***baisi-vüsali mətalibdir"*** [3, s.296].

3) Dörd sözdən ibarət səclər: *"Maliki-mülkarayi-aləm və* ***hakimi-hikmətfəzayi-əqalimi-hikem*** *mə'mureyi-cəhani vəqfi-ərbabi-istirzaq edib, tövliyətin müluki-ədalətşüar və hükkami-mərhəmətdisarə təfviz etdikcə və* ***xanogah-təngnayi-ersəyi-imkanda... "*** [3, s.295].

Füzulinin "Şikayətnamə" əsərində nəzm nümunələrində səc sənətinin klassik poetikada işlənən hər 3 növünə rast gəlmək mümkündür.

1) Səci-mütərrəf (yanaşı səc) – Bu növ səclər sözlərin qafiyə baxımından eyni, vəzn baxımından fərqli olması ilə diqqəti cəlb edir. *"****Şərhi-şəmmeyi-səna*** *və* ***rəfi-şiymeyi-duadan*** *sonra..."* [3, s.295], *"Və* ***müşabehi-nafeyi-mişknab*** *ilə dolub* ***qaidi-izzü-ehtiramla*** *varid olmuş..."* [3, s.297].





2) Səci-müavizanə (vəznli səc) – Bu növ səci fərqləndirən cəhət vəzn baxımından uyğunluq olsa da, qafiyə baxımından müxtəliflik olur. *"Həqqa ki, ol ulu* ***ayeti-rəhmət*** *nüzulindən* ***xatiri-fatitrə*** *bir növ məsərrət sirayət etdi ki..."* [3, s.297].

3) Səci-mürəssə (ziynətli səc) – Səcin bu növündə qafiyə və vəzn baxımından uzlaşma mövcuddur. Füzulinin "Şikayətnamə" əsərində səcin bu növündə yazılmış nümunələr nisbətən üstünlük təşkil edir. " *Əlqissə, bu təhrik ilə* ***dərgahi-müəlladan*** *bir nəsibə talib olub və* ***ərkani-dövlətdən səadəti-imdad*** *və* ***şərəfi-is'ad*** *bulub..."* [3, s.296], *"Ol* ***ayəti-mənsux*** *kimi* ***məmnuül-əməl****, mən* ***ümməti-mənsux*** *kirai* ***məqtuül-əməl"*** [3, s.299].

Füzulinin "Şikayətnamə" əsərinin nəzm nümunələrində məzmun etibarilə ictimai-siyasi mahiyyət kəsb edən qitə janrına aid üç nümunə yer almışdır. Bu qitələrin birində Füzuli Sultan Süleyman şəxsiyyətinə ehtiramını ifadə etməklə onun daim vilayətdə hökmran olması istəyini dilə gətirir:

*Padişahi-bəhrü bərr Sultan Süleyman-vəli,*
*Ol ki, məhzi-ədldir zati-vilayətpərvəri.*
*Xali ondan olmasın, ya Rəb, vilayət ta əbəd*
*Kim, vilayətdən degil xali səfayi-cövhəri* [3, s. 296].

"Şikayətnamə" əsərində sənətkarın şeiriyyətinə xüsusi axıcılıq, ahəngdarlıq bəxş edən "bədii xitab" bədii sözün forma və məna incəliyini təmin edən poetik fiqur kimi çıxış edir:

***Sərvəra,*** *gərdişi-sipehri-kəbud*
*Daim olmaz müvafiqi-məqsud*
*Bağlamaz hər şükufə meyveyi-tər,*
*Əksəri bitdigi yerində itər* [3, s.300].

Füzulinin yaratdığı bənzərsiz nümunələrdə poetik təkrirlər bədii fikrin hissi-emosional təsir gücü, ritmik ahəngdarlığını artırmaqla yanaşı, bədii qəliblərin rəngarəng formalarını yaradır. Təkrir poetik fiquru Füzuli şeiriyyətində türk xalqlarına məxsus poetika ənənəsinin ən səciyyəvi göstəricilərindən biri olub, həm məna, həm də estetik funksiyası ilə seçilir. Bu poetik vasitənin müxtəlif növlərindən məharətlə istifadə edən şairin ədəbi irsində təkrirlər öz tətbiqi xüsusiyyətləri-ilə fərqlənir ki, bu da Füzulinin fərdi üslubunu, onun ədəbi dilimizə gətirdiyi yenilikləri müəyyən etmək baxımından çox zəngin material verir [5, s.74].

***Zəhi****, misalı-şərifü nişanı-alişan!*
***Zəhi*** *mürasileyi-zövqbəxşü feyzrəsan!*
***Zəhi*** *lilali-sipehri-əvatifü əşfaq!*
***Zəhi*** *kilidi-künuzi-mərahimü ehsan!*
***Zəhi*** *səhifeyi-safidilü səfaəngiz!*
***Zəhi*** *cərideyi-ənbərnisarü mişkəfşan* [3, s.297].

Əsərin nəzm hissələrində ritm-intonasiyanın qüvvətlənməsinə şərait yaradan, səslərin təkrarı ilə ahəngdarlıq yaradan "touzi" adlanan poetik fiqurun işlənmə məqamı da diqqəti cəlb edir. "Touzi" sözünün lüğəvi mənası paylaşdırma, səpələmə, pərakəndə salma olub, təkrirdən fərqli olaraq, şeirin ritmik-intonasiya gözəlliyini təmin edən vasitələrdən biri kimi çıxış edir [2, s. 186].

***Mən*** *ona fitnə, ol* ***mənə*** *afət,*
*Mütənəffir* ***mən*** *ondan, ol* ***məndən.***

*Mən ona qüssə, ol mənə möhnət,*
*Mütənəkkir mən ondan, ol məndən* [3, s.299].

Füzulinin bədii məharəti fikrin ifadəsində bədii təsir gücünü artırmaq, emosionallığı, ekspressivliyi qüvvətləndirmək məqamında paralel bir neçə poetik fiqurdan yararlanması, poetik dilin özəlliklərindən istifadə etməsində özünü büruzə verir. Touzi (səs təkrarı). Şeirdə ritmik-intonasiya yaradan vasitələrdən biri olan bu poetik fiqur misra, beyt və ya bənd daxilində eyni səs tərkibli sözlərin işlənməsini tələb edir [4, s.68-69]. Bu nümunədə şeir ustadı həm "***mən***" sözü vasitəsilə təkrir yaratmış, həm də "***m***" səsinin misralar boyu səpələnməsi sayəsində touzi poetik fiquruna da müraciət etmişdir.

Gördüyümüz kimi, Füzuli qafiyəli nəsrlə (səclə) yazdığı "Şikayətnamə" əsərində söz-məna, dil-üslub gözəlliyi, məna incəliyi yaratmaq məqsədilə klassik Şərq poetikasının bir çox təsvir elementlərindən faydalanmış, ənənə və novatorluq meyillərinə əsaslanmaqla bədii əsərin poetik imkanlarını aşkara çıxarmışdır. Özündən əvvəlki nəslin ədəbi irs, poetik düşüncə tərzi, mühakimə yürütmək bacarığı, təxəyyül qabiliyyətinə bələd olan Füzuli "Şikayətnamə" əsərində nəsrlə nəzmi növbələşdirmiş, fikri epik təhkiyə ilə lirik təqdimatın vəhdətində verərək ahəngdar bir dilə malik sənət nümunələri yaratmışdır.

## Nəticə / *Conclusion*

Füzulinin söz xəzinəsi, şeir inciləri bədii tərtibat cəhətdən klassik ədəbi nümunələrlə müəyyən dərəcədə səsləşsə də, poetik xüsusiyyət, ədəbi baxış, bədii ruh baxımından həmdövrlərinin poetik irsini belə kölgədə qoyur. Füzuli irsi türkdilli poetikanın milli ənənələrinə əsaslanan, milli köklərə söykənən, Şərq poetikasının əsas kateqoriyalarını, söz incəliklərini, bəlağət vasitələrini özündə ehtiva edən zəngin məxəzdir. Nəsrlə nəzmin uzlaşdığı "Şikayətnamə" əsərində poetik fiqur və təsvir vasitələrinin işlənmə məqamları Füzuli şəxsiyyətinin yüksək sənətkarlıq qabiliyyətini nümayiş etdirir. Əsərdə bədii formanın mükəmməlliyinə, melodik lirizmə, obrazlı süjet təsvirinə əsaslanan bəlağət vasitələri işlənməklə şairin yüksək sənətkarlıq potensialının mövcudluğundan, yaradıcılıq qüdrətinin kamilliyindən, bədii dil vahidlərindən məharətlə faydalanmaq bacarığından xəbər verir. Təhlilə cəlb olunan nümunələrə əsasən, nəzm strukturuna məna, intonasiya gözəlliyi bəxş edən, lirik təəssüratın güclənməsinə, misradaxili ahəngin tənzimlənməsinə, poetik ruhun yüksəlməsinə şərait yaradan təsvir elementlərinin "Şikayətnamə" əsərində işlənməsi onu ümumxalq ruhuna, danışıq-düşüncə tərzinə daha sıx tellərlə bağlayır.

## Ədəbiyyat / *References*


1. Azərbaycan ədəbiyyatı tarixi. 10 cilddə, III cild. Bakı, Elm, 2020
2. Quliyeva, M.H. Şərq poetikasının əsas kateqoriyaları. Bakı, Maarif, 2010
3. Məhəmməd, F. Əsərləri. 6 cilddə, II cild (Tərtib edəni: H.Araslı). Bakı, Şərq-Qərb, 2005
4. Nəcəfov, Ə. B. Füzuli – şairin yaradıcılıq psixologiyası. Bakı, Mütərcim, 2012
5. Karahan, A. Füzulinin mektupları. İstanbul Üniversitesi Edebiyyat fakultesi, "Türk dili ve Edebiyyatı" dergisi, cilt II, sayı 3-4, - 1948, 255-266 s.
6. Öztürk, M. Fuzuli Divanı'nda şikayet. Fırat Üniversitesi Sosyal Bilimler Enstitüsü, "Türk dili ve Edebiyyatı Ana Bilim Dalı. Yüksek lisans tezi. Elazığ: - 2007, VI+221 s.






## Единство стиха и прозы в произведении «Шикайетнаме» Физули

**Хаджар Велиева**
Доктор философии по филологии
Президиум НАНА
E-mail: doktorant2011@yandex.ru

**Резюме.** Великий мыслитель всех времен Мухаммед Физули, создавший шедевр мировой культуры и искусства мирового масштаба, возвышается среди поэтов XVI века. В произведении «Шикайетнаме» Физули, написанном в ритмической прозе, слышатся жалобы на социальные проблемы, угнетение, страдание, суровую жизнь масс, описывается лживость и лицемерие государственных чиновников.
Физули проявил большое мастерство в искусстве саджа в нашей классической литературе. Садж, используемый как в Священном Коране, так и в литературных произведениях более поздних периодов, придал поэзии особый эмоциональный настрой. Являясь одним из лучших примеров сатиры, в «Шикайетнаме» обращается внимание на бытовые проблемы крестьян, невыносимый труд. Поэт борется с несправедливостью, видя глубокое противоречие между интересами государственных чиновников и нуждами народа. Поэт, привлекая внимание своими гуманистическими взглядами, сочувствуя печали народа, встает на их сторону и борется против классового неравенства. Отличаясь необыкновенным лиризмом, высокой художественностью, «Шикайетнаме» демонстрирует позицию великого мыслителя, его идеи о гуманизме и свободе.
**Ключевые слова**: Физули, «Шикайетнаме», письмо, проза, стих